# Doğma ölkəmizdə

## 6 ayda iqtisadiyyata investisiya qoyuluşu 3,7 faiz artıb

2014-cü ilin birinci 6 ayı ilə müqayisədə cari ilin 6 ayında Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu 3,7 faiz artaraq 7,9 milyard manata çatıb. İlin 6 ayında ölkədə neft sektoruna 3,4 milyard manat, qeyri-neft sektoruna 4,5 milyard manat investisiyalar qoyulub. İnvestisiyaların həcmi ötən ilin müvafiq dövrünə nəzərən sənayedə 15,3 faiz, nəqliyyat və anbar təsərrüfatında 92,8 faiz, informasiya və rabitə sektorunda 2,5 dəfə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə 25,7 dəfə, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 8,1 dəfə, maliyyə-sığorta sektorunda 44,1 faiz artıb.

## Nəqliyyat və rabitədə orta aylıq əmək haqqı yüksəlib

Dövlət Statistika Komitəsinin məlumatına görə 2015-ci ilin yanvar-iyul aylarında nəqliyyat müəssisələrində işləyən 68,9 min muzdlu işçinin 70,5 faizi dövlət müəssisələrinin, 29,5 faizi özəl bölmənin payına düşmdüşdür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə onların orta aylıq əməkhaqqı 0,9 faiz artaraq 544 manat olmuşdur. Bu göstərici dəniz nəqliyyatında 1052, hava nəqliyyatında 818,7, metro nəqliyyatında 583,2, avtomobil nəqliyyatında 397,7, dəmir yolu nəqliyyatında isə 250,3 manat təşkil etmişdir. Ən yüksək artım dəniz nəqliyyatında (44,3 faiz) və dəmir yolu nəqliyyatında (16,7 faiz) olmuşdur.

İnformasiya və rabitə müəssisələrində işləyənlərin sayı isə 26,4 min nəfər olmaqla, bir işçinin orta aylıq əməkhaqqı 2,8 faiz artaraq 746,8 manat təşkil etmişdir.

## Ölkədə ümumi daxili məhsul 5,7 faiz artıb

İlin birinci 6 ayında ölkədə ümumi daxili məhsul (UDM) real ifadədə 5,7 faiz artaraq nominal olaraq 26,3 milyard manat təşkil edib. Mərkəzi Bankın Pul Siyasəti İcmalının 2015-ci ilin 6 ayının yekunlarına həsr olunan növbəti nömrəsinin məlumatında qeyd olunur ki, UDM-nin artımı əsasən qeyri-neft sektorunda 9,2 faiz olmuşdur. Neft sektorunda isə artım 1,3 faizə çatmışdır.

ÜDM-nin 67 faizi qeyri-neft sektorunun payına düşüb və iqtisadiyyatın bu bölməsi ümumi yüksəlişə 5,2 faiz artımla töhfə verib.

## Qeyr-neft məhsullarının ixracı artmaqda davam edir

Cari ilin birinci yarısında ölkə rezidentləri dünyanın 138 ölkəsinin hüquqi və fiziki şəxsləri ilə ticarət əməliyyatları həyata keçirmişlər. 88 ölkəyə əmtəə ixrac olunmuş, 123 ölkədən mal idxal edilmişdir.

Xarici ticarət əlaqələri iştirakçılarının 45-i Avropa, 25-i Amerika, 41-i Asiya ölkələri və qeyriləridir.

Statistik məlumata əsasən sözü gedən dövrdə xarici ticarət dövriyyəsinin həcmi 13 milyard 891,6 milyon, o cümlədən ixracın həcmi 9 milyard 193 milyon, idxalın həcmi 4 milyard 698,6 milyon dollar olmuşdur. Müsbət saldo 4 milyard 494,4 milyon dollar təşkil etmişdir. Qeyr-neft məhsullarının ixracı 2014-cü ilin eyni dövrü ilə müqayisədə isə 16 faiz artaraq 870,6 milyon dollara çatmışdır.

## Nikah üçün tələb edilən tibbi arayış «ASAN xidmət»dən əldə oluna biləcəkdir

AZƏRTAC-ın yaydığı məlumata görə nikaha daxil olmaq istəyən vətəndaşlar tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı pilot layihə çərçivəsində 5 saylı Baku «ASAN xilmət» mərkəzində fəaliyyət göstərən respublika Diaqnostika Mərkəzindən əldə edə bilərlər.

Vətəndaşların tibbi müayinədən keçdiklərini təsdiq edən arayış 5-15 gün müddətində verilir və bunun üçün dövlət rüsumu ödənilmir.

Yalnız «ASAN xidmət» mərkəzləri daxilində nikaha daxil olmaq istəyən şəxslər bu xidmətdən yaralana bələcəklər.

**N. ATAKİŞİYEV.**

# Gələn il üçün bol məhsulun əsası qoyulur

Ay yarım bundan əvvəl taxıl yığımı başa çatmağına baxmayaraq yenə tarlalarda işin ahəngdarlığı davam etdirilir. Kəndlilər gələn ilin bol məhsulunun etibarlı bünövrəsini qoymaq məqsədilə sahələrdə şumun çıxarılmasına, toxumun təmizlənməsinə və payızlıq əkin kampaniyasında iştirak edəcək texnikanın səpinə hazırlanmasına başlamışlar.

Əkin-biçində həmişə taxılçıların yanında olan "Aqrolizinq" ASC-nin rayondakı filialı da xeyli sayda texnikasını sahələrə çıxarmışdır. Bu da şum çıxarılması işini gündən-günə artırır. Redaksiyaya daxil olan son məlumata görə əkinçilər 1000 hektardan çox yay şumu çıxarılmasına nail olmuş və bu iş gündəlik olaraq davam edir.

Taxılçılıqda əsas mənbə olan toxum ehtiyyatına da böyük yer verilir. Qəbələdə toxumçuluq üzrə 6 təsərrüfat məşğul olur. Hazırda həmin təsərrüfatlarda toxum təmizləmə işləri fasiləsiz olaraq davam edir. Əsasən "Bezos-1", "Azəri", "Qobustan", "Şəki-1", "Azəri-1" buğda sortları və "Cəlilabad-19", Qarabağ-7", "Qarabağ-21" arpa sortları təmizlənir. Bundan başqa rayona yeni rayonlaşmış elit buğda toxumu sortları gətirilməsi üçün müəyyən işlər görülür.

Yay şumu çıxarılmasında «Gilan» MMC, «Həsrət» fermer təsərrüfatı, Kürd və Bayramkoxalı kəndlərinin təsərrüfatları irəlidə gedirlər. Toxumçuluq təsərrüfatlarında "Gilan" MMC və "Həsrət" kəndli fermer təsərrüfatı toxumları təmizləyir və səpin üçün hazırlayırlar. Adıgedən təsərrüfatlar bu il sahələrə daha yüksək repreduksiyalı toxum sortlarını səpməyi nəzərdə tutmuşlar. Eyni zamanda toxumçuluq təsərrüfatları öz istehsallarından əkinçilərə münasib qiymətlə toxum satmağı nəzərdə tutmuşlar.

Bu ilin payızlıq əkin mövsümündə fermerlər və torpaq mülkiyyətçiləri əvvəlki illərin ənənəsinə sadiq qalmaqla gələn ilin bol məhsulu üçün 25 min hektara yaxın sahələrdə arpa və buğda əkməyi qərara almışlar. Aparılan hazırlıq və işin gedişi deməyə əsas verir ki, əkinçilər növbəti ilin məhsulunun etibarlı bünövrəsini qoymaq üçün bütün qüvvələrini səfərbərliyə almışlar.

**A. CƏLİLOV.**

# Vaxtından əvvəl

Xəbər verildiyi kimi Bum qəsəbəsinə mavi qaz kəmərinin çəkilişinə mütəşəkkil surətdə başlanmışdır. Artıq bu iş sürətlə davam etdirilir. Bu xeyirxah işi MRC tikinti təşkilatı öz öhdəsinə götürmüşdür. Tikinti təşkilatından verilən məlumata görə küçələrə xətlərin çəkilişi sona çatmaq üzrədir. Bir neçə gündür ki, evlərə qaz xətlərinin çəkilməsinə və sayğacların quraşdırılmasına başlanmışdır. Bu işə təşkilatın iş icraçısı Fikrət İsbəndiyarov rəhbərlik edir və işin keyfiyyətli görülməsinə ciddi nəzarəti gücləndirir. İşdə usta çılıngərlərdən İlqar Məmmədov, Rəşad Daşdıyev, Nicat Zeynalov, Mənsur Quliyev, Elvin Hacıyev, Tariyel Rəşidov, Vasif Həsənov və Vüsal Məmmədov fədakarlıq göstərir, iş normasına əməl edirlər.

Bum əhalisi mavi qazın evlərdə alovlanacağı günü səbirsizliklə gözləyir.

Kollektivin üzvləri çalışırlar ki, işi vaxtından əvvəl başa çatdırsınlar.

# Təmir işləri seivindiricidir

Ötən hər gün bizi yeni dərs ilinə yaxınlaşdırır. Elə buna görə də pedaqoji kollektivlər yeni dərs ilinə hərtərfli hazırlıq görür, sinif otaqlarını, dəhlizləri rəngləyir, məktəblərin həyətlərində səliqə-səhman işləri aparır, qış üçün odun tədarük edirlər. Bu baxımdan Uludaş kənd tam orta məktəbində aparılan təmir və hazırlıq işləri sevindiricidir.

Məktəbin direktoru bacarıqlı və gözəl pedaqoq Sədeddin Eldarovla apardığım söhbətdən məlum oldu ki, cari dərs ilində məktəbdə 17 sinifdə 262 nəfər şagird təhsil alacaq və onların təlim-tərbiyəsi ilə 43 nəfər müəllim məşğul olacaq.

Müəllimlərin yaxından dəstəyi ilə burada sinif otaqları və dəhlizlər təmir edilmiş və rənglənmişdir. Qış üçün 100 kubmetrə yaxın odun tədaruk edilmişdir.

Demək olar ki, kollektiv yeni dərs ilinə hazırdır.

**Emin BARATOĞLU.**

# Tarix-Diyarşünaslıq Muzeyində

## Muzeyimiz bu gün

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi həmişə olduğu kimi yenə də qonaqlı- qaralıdır. Meksika, İspaniya, Yunanıstan, İtaliya, Rusiyadan və s. ölkələrdən gələn turistlər bu günlərdə muzeyimizdə olmuşlar. Azərbaycanın qədim tarixi, zəngin təbiəti, şəhərimizin gözəlliyi onlarda daha böyük maraq doğurduğunu söyləmişlər.

Azərbaycanın bir parçası olan Qəbələni canlı olaraq seyr edən xarici vətəndaşlar bu diyara vurğun olduqlarını xatirə kitabına qeyd etmiş, muzeyimizdən xoş əhval-ruhiyyə ilə ayrılmışlar.

## Dəyirmi masa

Bu günlərdə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində Dəyirmi masa təşkil edilmişdir. Azərbaycanda Koreya kinosu günləri ərəfəsində təşkil olunan bu dəyirmi masada Koreyanın tarixi, mədəniyyəti ilə bağlı mövzularda söhbətlər aparılmışdır. Muzeyin direktoru Xalis Məmmədov SEBA (Seul—Bakı) Azərbaycan—Koreya Mədəniyyət Mubadiləsi Assosiasiyasının son illərdə gördüyü işlərdən, muzeyimizlə sıx mübadiləsindən, hərtərəfli əlaqələrindən geniş söhbət açmışdır.

Qeyd edək ki, SEBA (Seul—Bakı) Azərbaycan—Koreya Mədəniyyət Mubadiləsi Assosiasiyasının hazırlayaraq nəşr etdirdiyi bütün materiallar muzeyimizdə sərgilənir və hər bir tamaşaçıya bu kitabçalardan hədiyyə olaraq bağışlanılır.